# Əməkdaşlıq əlaqələri genişlənir



Misir Ərəb Respublikasının Müdafiə Nazirliyinin Sərhəd Qoşunlarının komandanı, general-mayor Əhməd İbrahim Məhəmməd İbrahiminin başçılığı altında nümayəndə heyəti Azərbaycan Respublikasına səfərə gəlmişdir.

Dünən Dövlət Sərhəd Xidmətinin Aparatında qonaqlarla geniş tərkibdə görüş keçirilmişdir. Görüş zamanı Azərbaycanla Misir Ərəb Respublikası arasında dostluq münasibətlərinin yüksək səviyyədə olduğu məmnunluqla qeyd edilmiş, hərbi-texniki, təhlükəsizlik sahələrində ikitərəfli əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmış, qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə əməkdaşlığın həyata keçirilməsinin, təcrübə mübadiləsinin zəruriliyi vurğulanmışdır.

Azərbaycan Respublikasının dövlət sərhədindəki əməliyyat şəraiti və mövcud təhdidlərdən danışan Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-polkovnik Elçin Quliyev Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qaldığını, həmin ərazilərin transsərhəd cinayətkar fəaliyyətlər üçün istifadə olunduğunu, mövcud vəziyyətin sərhəd təhlükəsizliyinə əsas təhdid olduğunu qeyd etmiş, həmçinin sərhəd mühafizə sisteminin təkmilləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barəsində Misir nümayəndələrinə məlumat vermişdir.

Səfər müddətində nümayəndə heyəti DSX-nin struktur bölmələrində, Müdafiə Nazirliyi, Müdafiə Sənayesi Nazirliyində, Fövqəladə Hallar Nazirliyində olacaq və Müdafiə Sənayesi Nazirliyinin istehsalat müəssisələrinə gedəcək.

***"Azərbaycan"***